Testin çətinlik dərəcəsi: orta

İstinad:  "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

76.  Baxılmış hesab olunan müraciətə hansı dildə cavab verilir?

A)  Müraciətə İngilis, Türk və Dövlət dilində cavab verilir

B)  Müraciətə Dövlət dilində cavab verilir

C)  Müraciətə İngilis və Dövlət dilində cavab verilir

D) Müraciətə Türk və Dövlət dilində cavab verilir

E) Müraciətə İnglis, Rus və Dövlət dilində cavab verilir

Testin çətinlik dərəcəsi: asan

İstinad:  "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

77.  Buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair akta əsasən sənaye qaz qurğularının istismara buraxılması hansı dövlət orqanının icazəsi əsasında həyata keçirilir?

A)  Nazirlər Kabineti

B)  Qaz İxrac idarəsi

C)  Azəriqaz İstehsalat Birliyi

D) Səhiyyə Nazirliyi

E) Energetika Nazirliyi

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

78. Buraxılış-sazlama və rejim-sazlama işlərinin yekununa dair akta əsasən sənaye qaz qurğularının istismara buraxılması üçün xüsusi icazənin verilməsi qaydası ... tərəfindən müəyyən edilir. Cümləni tamamlayın.

A) Nazirlər Kabineti

B) Qaz İxrac idarəsi

C) Azəriqaz İB

D) Səhiyyə Nazirliyi

E) Energetika Nazirliyi

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

79. Çağrı Mərkəzi hansı halda, müraciət edəni təmsil etdiyi dövlət orqanının aidiyyəti struktur vahidinə (xidmət mərkəzinə) dəvət edə bilər?

A) Əlavə sənədlərə və birgə araşdırmaya ehtiyac olduqda

B) Vətəndaşın istəyinə uyğun olaraq

C) Müraciət zamanı araşdırma vətəndaşın iştirakı ilə aparılmalıdır

D) Yalnız şəxsi məsələlər olduğu zaman

E) Müraciətə baxan subyektin şəxsi istəyindən asılı olaraq

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

80. Çağrı Mərkəzinin təmsil etdiyi dövlət orqanında müvafiq qeydiyyat zamanı şəxsə həmin orqan tərəfindən verilmiş xüsusi eyniləşdirmə (identifikasiy nömrəsi (kodu) və onun əsasında formalaşmış məlumatlar dedikdə hansı anlayış başa düşülür?

A) Qeydiyyat məlumatı

B) Dəstək qrupu

C) Birbaşa əlaqə qrupu

D) Müraciət vərəqəsi

E) Çağrı Mərkəzi

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları".
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı.
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

81. Daxil olan müraciətləri (birbaşa daxil olan zəngləri və zəng sifarişini) həcmindən (iş yükündən) asılı olaraq müəyyən edilmiş hədəflər səviyyəsində cavablandırmağa imkan verəcək sayda əməkdaşlar dedikdə hansı anlayış başa düşülür?

A) Təmsilçi

B) Dəstək qrupu

C) Birbaşa əlaqə qrupu

D) Müraciətlərlə iş qrupu

E) Çağrı Mərkəzinin audit qrupu

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları".
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı.
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

82. Elektron müraciət həmin müraciətə baxan subyektə və ya onun vəzifəli şəxsinə hansı formada göndərilir?
1. Elektron ünvanına göndərilir
2. Onun rəsmi internet saytına daxil edilir

3. Poçt vasitəsilə göndərilir
4. Faks vasitəsilə göndərilir

A) 1.2

B) 1.2.3

C) 2.3.4

D) 1.3

E) 1.2.4

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

83. Elektron sənəd formasında göndərilən müraciət hansı formada təsdiq olunmalıdır?

A) Şəxsiyyəti təsdiq edən sənədlə

B) Notarial qaydada

C) Ştamp və ya möhürlə

D) Elektron imza ilə

E) Vətəndaşın imzası ilə

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

84. Əməkdaşların vəzifə təlimatında nəzərdə tutulan vəzifə və öhdəliklərinin əhəmiyyətinə və Çağrı Mərkəzinin ümumi hədəflərinə əsasən hər bir vəzifənin xüsusi çəkisinin müəyyənləşdirilməsi və əməkdaşın fəaliyyətinin bu göstərici əsasında hesablanması dedikdə hansı anlayış başa düşülür?

A) Qeydiyyat məlumatı

B) Əməkhaqqı kartı

C) Bonus kartı

D) Nəticə kartı (scorecard)

E) Çağrı Mərkəzinin qeydiyyat blankı

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı.
Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

85. Hansı halda müraciət vətəndaşın razılığı ilə qəbul zamanı şifahi qaydada cavablandırılır?

A) Müraciətdəki məsələlərin həlli əlavə araşdırma tələb etmədikdə

B) Müraciətdəki məsələlər məxfi xarakter daşımadıqda

C) Müraciəti cavablandıran subyektin kifayət qədər vaxt ayırma imkanı olmadıqda

D) Müraciət edən vətəndaş hüquqi şəxs olmadıqda

E) Müraciətin mövzusu cavablandıran subyektin maraq dairəsində olmadıqda

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

86. İnformasiya əldə edilməsi üçün sorğunun verilməsi və informasiya əldə edilməsi haqqında sorğuya baxılması qaydası hansı qanunla tənzimlənir?

A) Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir

B) "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir

C) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi və İntizam Nizamnaməsi ilə tənzimlənir

D) "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir

E) "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

87. İş yükünün proqnozlaşdırılmasını, iş yükünün və qruplararası işçi qüvvəsinin bölgüsünü, dövri hesabatların hazırlanmasını və ümumiyyətlə, xidmətin daha səmərəli təşkili baxımından bütün zəruri funksiyaları həyata keçirən əməkdaşlar dedikdə hansı anlayış başa düşülür?

A) Təmsilçi

B) Dəstək qrupu

C) Birbaşa əlaqə qrupu

D) Cavablandırılmaya qəbul edilmiş müraciətlərlə iş qrupu

E) Çağrı Mərkəzinin audit qrupu

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

88. İstehlakçı tərəfindən qazın hesabı tam ödənildikdən sonra, Paylayıcı tərəfindən yol verilmiş səhvə görə düzgün hesablanmamış qazın dəyərinin Paylayıcı .... Cümləni tamamlayın.

A) İstehlakçı tərəfindən növbəti ay ərzində ödənilməsini tələb etməlidir.

B) İstehlakçı tərəfindən ödənilməsini tələb etməlidir

C) İstehlakçı tərəfindən ödənilməsini tələb edə bilməz

D) İstehlakçı tərəfindən növbəti 3 ay ərzində ödənilməsini tələb etməlidir

E) İstehlakçı tərəfindən növbəti 2 ay ərzində ödənilməsini tələb etməlidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

89. Kargüzarlığın aparılmasına dair təlimata əsasən -Sənədlərin surətlərinin çıxarılması üçün kimin icazəsi tələb olunur?

A) İstənilən rəhbər şəxsin göstərişi

B) Nazirlər kabinetinin nümayəndəsinin göstərişi

C) Müvafiq rəhbər şəxsin göstərişi

D) Nazirlər Kabinetinin göstərişi

E) Asan xidmət mərkəzinin göstərişi

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat

90. Kimlərin səyyar və videoqəbullar, o cümlədən onlayn konfranslar keçirmək hüququ vardır?

A) Müraciətə baxan subyektlərin özlərinin

B) Müraciət edən vətəndaşların

C) Müraciətə baxan subyektlərin rəhbərlərinin

D) Müraciət edən fiziki şəxslərin

E) Müraciət edən hüquqi şəxslərin

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

91. Kompyuter (makina) üsulu ilə hazırlanan sənədlərdə tələbə əsasən A5 formatlı kağızlar üçün aşağı tərəfdən nə qədər məsafə saxlanmalıdır?

A) 20 mm

B) 19 mm

C) 5 mm

D) 16 mm

E) 25 mm

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”

92. Kompyuter (makina) üsulu ilə hazırlanan sənədlərdə tələbə əsasən sağ tərəfdən nə qədər məsafə saxlanmalıdır?

A) ən azı 10 mm

B) ən azı 28 mm

C) ən azı 18 mm

D) ən azı 8 mm

E) ən azı 5 mm

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat”

93. Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətlərə baxılması qaydası hansı qanunla tənzimlənir?

A) Azərbaycan Respublikasının Seçki Məcəlləsi ilə tənzimlənir

B) “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir

C) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsi və İntizam Nizamnaməsi ilə tənzimlənir

D) “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir

E) “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanunu

94. Mərkəzi və yerli icra hakimiyyəti orqanları dedikdə, hansı anlayış başa düşülür?

A)  Təmsilçi

B)  Dövlət orqanı

C)  Birbaşa əlaqə qrupu

D) Cavablandırılmaya qəbul edilmiş müraciətlərlə iş qrupu

E) Çağrı Mərkəzi

Testin çətinlik dərəcəsi: asan

İstinad:  "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

95.  Mərkəzin digər əməkdaşları ... qanunvericiliyə uyğun olaraq vəzifəyə təyin və vəzifədən azad edilir. Cümləni tamamlayın.

A)  Agentliyin sədri tərəfindən

B)  Sektor müdiri tərəfindən

C)  Səyyar xidmətin qrup rəhbəri tərəfindən

D) Müraciəti qəbul edən subyekt tərəfindən

E) Mərkəzin direktoru tərəfindən

Testin çətinlik dərəcəsi: orta

İstinad:  Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

96.  Müasir informasiya texnologiyalarından istifadə edilməklə, orqanın səlahiyyətlərinə aid müraciətlərin qəbul olunduğu və cavablandırıldığı, məlumatların çatdırıldığı strategiyadan, prosedur qaydalarından, infrastrukturdan və işçi qüvvəsindən ibarət sistem dedikdə hansı anlayış başa düşülür?

A)  Təmsilçi

B)  Dəstək qrupu

C)  Birbaşa əlaqə qrupu

D) Cavablandırılmaya qəbul edilmiş müraciətlərlə iş qrupu

E) Çağrı Mərkəzi

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarı

97. Müraciət edən vətəndaşın tələbi ilə müraciət haqqında hansı məlumatlar bildirilir?
1. Müraciətin qeydiyyat nömrəsi
2. Tarixi
3. Onun icraçısına dair məlumat
4. Müraciətə baxan icraçının yaş həddi
5. Müraciətə baxan icraçının iş təcrübəsi

A) 1.2.3.4.5

B) 1.2.3.4

C) 1.2.3

D) 1.2.4.5

E) 2.3.4.5

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

98. Müraciətə baxan subyektlər və onların vəzifəli şəxsləri qanunla müəyyən edilmiş qaydada verilən yazılı müraciətləri bu qanunun tələblərinə uyğun olaraq ........ Cümləni tamamlayın
1. Mütləq qəbul etməli
2. Qeydiyyata almalı
3. Onlara baxılmasını təmin etməli
4. Müraciəti qəbul etməkdən imtina etməli

A) 2.3.4

B) 1.2.4

C) 1.2.3

D) 1.3.4

E) 1.4

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

99. Müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq hansı müddətdən bir təmin etməlidirlər?

A) Ayda bir dəfədən az olmamaqla

B) Ayda iki dəfədən az olmamaqla

C) Ayda üç dəfədən az olmamaqla

D) Ayda dörd dəfədən az olmamaqla

E) Ayda beş dəfədən az olmamaqla

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

100. Müraciətin mətni oxunaqlı olmalı, müraciətdə edilən təklif və ya tələb aydın ifadə edilməlidir. Müraciətin mətnində ... yol verilməməlidir. Cümləni tamamlayın.

A) Şikayətə

B) Leksikoloji səhvlərə

C) Dialektlərə

D) Təhqir və böhtana

E) Orfoqrafik səhvlərə

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

101. Öz təklifi, ərizəsi, şikayəti barəsində qəbul edilmiş qərarla razılaşmayan vətəndaş hansı hüquqa malikdir?

A) Yenidən müraciət etməlidir

B) Şikayət etmək hüququna malikdir

C) Müraciətini geri çəkməlidir

D) İstənilən qərarla razılaşmalıdır

E) Hüquqşunasa müraciət etməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

102. Qaz paylayıcısı tərəfindən istehlakçının qazla təchiz edilməsi qazın alqı-satqı müqaviləsinə əsasən həyata keçirilir. Həmin müqaviləyə qaz paylayıcısı ilə istehlakçı arasında ... əlavə edilir. Cümləni tamamlayın

A) Qaz paylayıcısı ilə sənaye qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı müqaviləsi

B) Qaz paylayıcısı ilə məişət qaz qurğusu istifadəçisi arasında qazın alqı-satqısı müqaviləsi

C) Qazpaylayıcı şəbəkənin balans mənsubiyyəti sərhədini müəyyən edən akt

D) Təbii qazın dəyəri barədə hesablaşma aktı

E) Hesablaşma dövründə qaz paylayıcısı ilə istehlakçı arasında qazın həcmi və dəyəri üzrə üzləşmə aktı

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

103. Qazdan istifadə qaydalarına əsasən - "illik iş planında göstərilən müddətlərdə təmir-profilaktika işlərinin aparılması ilə əlaqədar qazın verilməsinin dayandırılması barədə istehlakçını ən azı 5 (beş) gün əvvəl xəbərdar etmək" cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) Paylayıcının vəzifələri

B) Energetika Nazirliyi əməkdaşının vəzifələri

C) Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) İstehlakçının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı”

104. Qazdan istifadə qaydalarına əsasən - “qaz qurğularını onların texniki pasportlarında göstərilmiş tələblərə uyğun təhlükəsiz istismar etməli” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) Asan xidmət əməkdaşının vəzifələri

B) Energetika Nazirliyi əməkdaşının vəzifələri

C) Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) İstehlakçının vəzifələri

E) Paylayıcının vəzifələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

105. Qazdan istifadə qaydalarına əsasən - “qaz qurğularının, tüstü bacalarının, havalandırma və havadəyişmə xətlərinin normal işləməsini diqqətdə saxlamalı, qaz qurğusu işə salındıqdan dərhal sonra və onun istismarı zamanı qazın yanma məhsullarının tüstü bacalarına ötürülməsi ilə havanın sorulmasını yoxlamalı” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) Paylayıcının vəzifələri

B) Energetika Nazirliyi əməkdaşının vəzifələri

C) Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) İstehlakçının vəzifələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

106. Qazdan istifadə qaydalarına əsasən - “qazpaylayıcı şəbəkəni onun etibarlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə təmir-profilaktika işlərini vaxtında yerinə yetirməklə, texniki cəhətdən saz vəziyyətdə saxlamalı ” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) İstehlakçının vəzifələri

B) Energetika Nazirliyi əməkdaşının vəzifələri

C) Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) Paylayıcının vəzifələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

107. Qazdan istifadə qaydalarına əsasən - “verdiyi qazın dəyərini yalnız sayğacın göstəricilərinə əsasən tam hesablamaq və hər ay istehlakçıya hesab təqdim etmək” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) İstehlakçının vəzifələri

B) Energetika Nazirliyi əməkdaşının vəzifələri

C) Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Paylayıcının vəzifələri

E) Asan xidmət əməkdaşının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

108. Qazdan istifadə qaydalarına əsasən - “verilən qazın həcminin və dəyərinin, həmçinin istismarda olan qaz qurğularının tam və dəqiq uçotunu aparmaq” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) İstehlakçının vəzifələri

B)  Energetika Nazirliyi əməkdaşının vəzifələri

C)  Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) Paylayıcının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad:  “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

109.  Qazdan istifadə qaydalarına əsasən -“istifadə olunmuş qazın qaz sayğacının göstəricisinə əsasən dəyərinin tam ödənilməsini ondan tələb etmək” qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?

A)  Paylayıcının hüquqları

B)  İstehlakçının hüquqları

C)  Energetika Nazirliyi əməkdaşının hüquqları

D) Asan xidmət əməkdaşının hüquqları

E) Nazirlər Kabineti əməkdaşının hüquqları

Testin çətinlik dərəcəsi: orta

İstinad:  “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

110.  Qazdan istifadə qaydalarına əsasən -“Müqavilənin, “Qazdan istifadə Qaydaları”nın tələblərinin pozulduğu hallarda, həmin halların aradan qaldırılmasını ondan tələb etmək” qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?

A)  Energetika Nazirliyi əməkdaşının hüquqları

B)  Paylayıcının hüquqları

C)  İstehlakçının hüquqları

D) Asan xidmət əməkdaşının hüquqları

E) Nazirlər Kabineti əməkdaşının hüquqları

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

111. Qazdan istifadə qaydalarına əsasən -"müvafiq yazılı müraciəti (qaz təchizatının dayandırılmasının səbəbi və müddəti göstərilməklə) olduqda qazın verilməsini dayandırmaq" qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?

A) Energetika Nazirliyi əməkdaşının hüquqları

B) Paylayıcının hüquqları

C) İstehlakçının hüquqları

D) Asan xidmət əməkdaşının hüquqları

E) Nazirlər Kabineti əməkdaşının hüquqları

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

112. Qazdan istifadə qaydalarına əsasən -"Paylayıcının təqsirli hərəkətləri (hərəkətsizliyi), habelə müqavilə üzrə müəyyən edilmiş vəzifələrinin icra edilməməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini Paylayıcıdan tələb etmək" qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?

A) Energetika Nazirliyi əməkdaşının hüquqları

B) İstehlakçının hüquqları

C) Paylayıcının hüquqları

D) Asan xidmət əməkdaşının hüquqları

E) Nazirlər Kabineti əməkdaşının hüquqları

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

113. Qazdan istifadə qaydalarına əsasən -“qazın verilməsinin dayandırılmasına səbəb olmuş hallar aradan qaldırıldıqdan və müvafiq qaydada rəsmiləşdirildikdən sonra bir iş günü müddətində qazın verilməsinin bərpa edilməsini tələb etmək” qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?

A) Energetika Nazirliyi əməkdaşının hüquqları

B) İstehlakçının hüquqları

C) Paylayıcının hüquqları

D) Asan xidmət əməkdaşının hüquqları

E) Nazirlər Kabineti əməkdaşının hüquqları

Testin çətinlik dərəcəsi: asan

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

114. Qazdan istifadə qaydalarına əsasən -“təqsirli hərəkətləri, habelə bu Müqavilə üzrə müəyyən edilmiş vəzifələrinin icra edilməməsi nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini İstehlakçıdan tələb etmək” qeyd olunan bəndlərdən hansının hüquqlarına aiddir?

A) Energetika Nazirliyi əməkdaşının hüquqları

B) İstehlakçının hüquqları

C) Asan xidmət əməkdaşının hüquqları

D) Paylayıcının hüquqları

E) Nazirlər Kabineti əməkdaşının hüquqları

Testin çətinlik dərəcəsi: orta

İstinad: “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

115. Qazdan istifadə qaydalarına əsasən- “təqsirli hərəkətləri, habelə müqavilə üzrə müəyyən edilmiş öhdəliklərin icra edilməməsi nəticəsində İstehlakçıya dəymiş zərərin əvəzini ödəmək ” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) İstehlakçının vəzifələri

B)  Energetika Nazirliyi əməkdaşının vəzifələri

C)  Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Paylayıcının vəzifələri

E) Asan xidmət əməkdaşının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad:  "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

116.  Qazdan istifadə qaydalarına əsasən-"Müqavilə üzrə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsinə görə qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti daşımaq" cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A)  İstehlakçının vəzifələri

B)  Energetika Nazirliyi əməkdaşının vəzifələri

C)  Paylayıcının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) Nazirlər Kabineti əməkdaşının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad:  "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

117.  Qazdan istifadə qaydalarına əsasən-"qazın sayğacla müəyyənləşdirilən hesabı təqdim edildikdən sonra bir ay müddətinə tam ödənilmədiyi və müqavilə bağlanmadığı hallarda qazın verilməsinin dayandırılacağı barədə yazılı bildiriş göndərmək" cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A)  İstehlakçının vəzifələri

B)  Energetika Nazirliyi əməkdaşının vəzifələri

C)  Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Paylayıcının vəzifələri

E) Asan xidmət əməkdaşının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

118. Qazdan istifadə qaydalarına əsasən-"zədələnmiş qaz sayğacını təmir etmək və dövlət yoxlanılmasından keçirmək, habelə həmin qaz sayğacını təmir etmək mümkün olmadıqda dəyişdirmək və quraşdırmaq" cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A) İstehlakçının vəzifələri

B) Energetika Nazirliyi əməkdaşının vəzifələri

C) Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) Paylayıcının vəzifələri

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

119. Qəbul edilmiş qərar hansı müddətə kargüzarlıq xidməti tərəfindən icraçılara çatdırılır?

A) Ən geci 10 gün

B) Ən geci 5 gün

C) Ən geci 7 gün

D) Ən geci 14 gün

E) Ən geci 15 gün

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat

120. Qəbul edilmiş qərara kimin razılığı olmadan düzəliş etmək qadağandır?

A) Təşkilat rəhbərliyinin

B) Kargüzarlıq əməkdaşının

C) Kargüzarlıq xidməti rəisinin

D) Asan xidmət əməkdaşının

E) Asan xidmətdə müraciətə baxan subyektin

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat

121. Qeyd olunan bəndlərdən hansı müraciətlərə baxılması zamanı vətəndaşların hüququna aid deyil?

A) Müraciətə baxılmasının dayandırılması barədə ərizə ilə müraciət etmək

B) Təkrar yazılı müraciətə ilkin müraciətə baxılmasının nəticəsi barədə sənədləri əlavə etmək

C) Müraciətin cavablandırılmasında dövlət sirri təşkil edən sənədləri tələb etmək

D) İctimai informasiya və fərdi məlumatların əldə edilməsi məqsədi ilə sorğu vermək

E) Müraciətin tam və hərtərəfli araşdırılması üçün sənədlərin əldə edilməsini müraciətə baxan subyektdən xahiş etmək

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

122. Qeyd olunan bəndlərdən hansında "Vətəndaşların qəbul edilmə qaydası" göstərilmişdir? Tam və doğru cavabı müəyyən edin.
1. Müraciətə baxan subyektlər vətəndaşların qəbul edilməsini vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq ayda bir dəfədən az olmamaqla təmin etməlidirlər
2.Vətəndaşlar əvvəlcədən məlumat verilən günlərdə və saatlarda qəbul edilməlidirlər
3. Vətəndaşları müraciətə baxan subyektlərin rəhbərləri və ya digər vəzifəli şəxsləri qəbul edirlər

4. Dövlət hakimiyyəti orqanları, idarə, təşkilat və müəssisələrin rəhbərləri və digər vəzifəli şəxsləri vətəndaşların qəbul edilməsindən istənilən anda imtina edə bilərlər

A) 1. 2. 3

B) 2. 3. 4

C) 1. 2. 4

D) 1. 2. 3. 4

E) 1. 3. 4

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

123. Qeyd olunan bəndlərdən hansını yerinə yetirmək istehlakçı üçün qadağan edilmir?

A) Qaz qurğularında avtomatlaşdırılmış təhlükəsizlik və tənzimləmə vasitələrini ləğv etmək

B) Nasaz qaz avadanlıqlarından, xüsusilə onlarda qaz sızması aşkar edildikdə qazdan istifadə etməmək

C) Qaz qurğularının quruluşuna (konstruksiyasına) dəyişikliklər etmək, tüstü bacalarının və havadəyişmə xətlərinin quruluşunu dəyişdirmək

D) Qaz qurğusunun quraşdırıldığı yerin quruluşunu (planını) müvafiq razılaşma olmadan dəyişdirmək

E) Özbaşına qaz qurğularının quraşdırılmasını, qaz qurğularının və qapadıcı ventillərin yerdəyişməsini, dəyişdirilməsini və təmirini həyata keçirmək

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Qazdan istifadə Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

124. Sənədlərin rəsmiləşdirilməsi hansı formada həyata keçirilir? Tam və düzgün cavabı seçin
1. İmzalanması
2. Təsdiq edilməsi
3. Qeydə alınması
4. Möhür vurulması
5. Surətinin çıxarılması

A) 1.2.3.5.

B) 1.3.4.5

C) 1.2.3.4

D) 1.2.3

E) 1.3.4

Testin çətinlik dərəcəsi: orta

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"

125. Səyyar xidmət göstərilərkən qanunvericiliyə müvafiq tələb olunan sənədlərdən .... Cümləni tamamlayın.

A) Başqa sənədlər tələb oluna bilməz

B) Yalnız şəxsiyyət vəsiqəsi tələb oluna bilər

C) Yalnız doğum haqqında şəhadətnamə tələb oluna bilər

D) Yaşayış yerindən arayış tələb oluna bilər

E) Nigah haqqında şəhadətnamə tələb oluna bilər

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" və "ASAN Kommunal mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili" Qaydaları

126. Səyyar xidmət müqaviləsi nə zamanadək qüvvədə olur?

A) Xidmətin icrasının mürəkkəbliyinə görə 3 iş günü ərzində

B) Xidmətin icrasının mürəkkəbliyinə görə 5 iş günü ərzində

C) Xidmətin icrası başa çatanadək və ya xitam verildikdə

D) Xidmətin icrasının mürəkkəbliyinə görə 1 iş günü ərzində

E) Xidmətin icrasının mürəkkəbliyinə görə 10 iş günü ərzində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" və "ASAN Kommunal mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili" Qaydaları

127. Səyyar xidmət müqaviləsinin yekunu olaraq doldurulan məmnunluq anketində hansı məlumatlar öz əksini tapır?
1. Ad, soyad, ata adı
2. Telefon nömrəsi
3. Səyyar xidmətin növü
4. Səyyar qrupun fəaliyyətinin qiymətləndirilməsi (1-10 arası bir rəqəmlə)
5. İş yerinin ünvanı
6. Yaşayış ünvanı

A) 1.2.3.4

B) 1.2.5.6

C) 1.3.5.6

D) 2.4.5.6

E) 1.2.3.5

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" və "ASAN Kommunal mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili" Qaydaları

128. Şifahi müraciətdəki məsələlərin həlli əlavə araşdırma aparılmasını tələb etmədikdə, hansı qaydada cavablandırılır?

A) Vətəndaşın razılığı ilə yazılı qaydada cavablandırılır

B) Vətəndaşın razılığı ilə şifahi qaydada cavablandırılır

C) Müraciət qəbul zamanı mütləq şifahi qaydada cavablandırılır

D) Müraciət qəbul zamanı mütləq yazılı qaydada cavablandırılır

E) Müraciəti cavablandıran subyektin qərarından asılı olaraq cavablandırılır

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

129. Tərəflərdən hər biri Səyyar xidmət müqaviləsi bağlanarkən və bu müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi zamanı ... barədə öz üzərilərinə öhdəlik götürürlər. Cümləni tamamlayın.

A) İcraçının xidmətinin bu Müqavilənin şərtlərinə uyğun olan nəticələrini qəbul etmələri

B) Xidmətin icrası ilə əlaqədar digər şəxslərin müstəsna hüquqlarını pozmamaq

C) Zərurət olduğu hallarda xidmətin icrasına üçüncü şəxsləri cəlb etmələri

D) Şəxsi və ailə həyatının sirrinə dair, həmçinin qanunvericiliklə məxfi hesab edilən digər məlumatları yaymamaq

E) Bu Müqavilənin icrası ilə əlaqədar zəruri olan bütün sənədləri və məlumatları icraçıya vermələri

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" və "ASAN Kommunal mərkəzlərində göstərilən xidmətlərin səyyar formada göstərilməsinin təşkili" Qaydaları

130. Təşkilatlarda kargüzarlıq hansı dildə aparılır?

A) Dövlət dilində

B) Rus dilində

C) İngilis dilində

D) Azərbaycan və Rus dilində

E) Azərbaycan və Türk dilində

Testin çətinlik dərəcəsi: asan

İstinad: Dövlət orqanlarında,dövlət mülkiyyətində olan və payların (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"

131. Vətəndaş müraciətinin baxılmamış saxlanmasına əsas verən hallar aradan qaldırıldıqda, hansı tədbir görülməlidir?

A) Vətəndaşa yenidən müraciət etməsi bildirilməlidir

B) Müraciətə baxan subyekt ona baxılmanı təmin etməlidir

C) Vətəndaş müraciəti ləğv edilməlidir və cavab verilməlidir

D) Vətəndaş müraciəti dondurulmalıdır və cavab verilməlidir

E) Vətəndaş müraciəti baxılmış hesab edilməlidir və cavab verilməməlidir

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

132. Vətəndaş növbə aparatından istifadə qaydalarını bilmədikdə .... Cümləni tamamlayın.

A) Müraciət edə bilməz. İstifadə qaydasını bilməsi mütləqdir

B) Məlumat xidməti göstərən şəxslərə müraciət etməlidir

C) Xidmət mərkəzinin direktoruna müraciət etməlidir

D) Agentliyin sədrinə müraciət etməlidir

E) Şikayət ərizəsi ilə mərkəzə müraciət etməlidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: "ASAN xidmət" mərkəzlərində fəaliyyətin tənzimlənməsi və davranış qaydaları

133. Vətəndaş tərəfindən verilən hansı tip müraciətlərə baxılmır?

A) Əcnəbi vətəndaşların müraciətlərinə baxılmır

B) Anonim müraciətlərə baxılmır

C) İstənilən müraciətə üzrlü səbəb olmadan baxılmasından imtina edilə bilər

D) Yaşı 18-ə çatmayan vətəndaşların müraciətlərinə baxılmır

E) Səbəbindən asılı olmayaraq bütün müraciətlərə baxılır

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

134. Vətəndaş tərəfindən yazılı müraciət zamanı hansı məlumatlar qeyd olunmalıdır?

A) Yazılı müraciətdə vətəndaşın adı, bitirdiyi orta məktəb göstərilməlidir

B) Yazılı müraciətdə vətəndaşın adı, atasının adı, soyadı, ünvanı yaxud işlədiyi yer göstərilməlidir

C) Yazılı müraciətdə vətəndaşın adı, atasının adı, soyadı, bitirdiyi ali məktəb göstərilməlidir

D) Yazılı müraciətdə vətəndaşın adı, atasının adı, soyadı göstərilməlidir

E) Yazılı müraciətdə vətəndaşın adı, atasının adı, soyadı, doğulduğu şəhər göstərilməlidir

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

135. Vətəndaşların müraciəti haqqında Azərbaycan Respublikasının Qanununa əsasən- "ictimai informasiya və fərdi məlumatların əldə edilməsi məqsədi ilə sorğu vermək" bəndi hansı şəxsin hüququna aiddir?

A) Qrup rəhbərinin hüququna

B) Müraciətə baxan subyektin vəzifəli şəxsinin hüququna

C) Müraciətə baxan subyektin hüququna

D) Müraciətinə baxılan vətəndaşın hüququna

E) Asan xidmət mərkəzinin direktorunun hüququna

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

136. Vətəndaşların müraciəti haqqında Azərbaycan Respublikasının Qanununa əsasən- "məsələnin mahiyyətini öyrənməli və onun həlli üçün lazımi sənədləri tələb etməlidirlər" bəndi hansı şəxsin vəzifə borcuna aiddir?

A) Səyyar xidmətin Qrup rəhbərinin

B)  Müraciətə baxan subyektin vəzifəli şəxsinin

C)  Müraciətə baxan subyektin

D) Müraciətinə baxılan vətəndaşın

E) Asan xidmət mərkəzinin direktorunun

Testin çətinlik dərəcəsi: çətin

İstinad:  "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

137.  Vətəndaşların müraciəti haqqında Azərbaycan Respublikasının Qanununa əsasən- "müraciətin qeydiyyat nömrəsi və daxilolma tarixi barədə, müraciət aidiyyəti üzrə göndərildikdə həmin məktubun qeydiyyat nömrəsi və göndərilmə tarixi barədə məlumat almaq" bəndi hansı şəxsin hüququna aiddir?

A)  Qrup rəhbərinin hüququna

B)  Asan xidmət mərkəzinin direktorunun hüququna

C)  Müraciətə baxan subyektin hüququna

D) Müraciətə baxan subyektin vəzifəli şəxsinin hüququna

E) Müraciətinə baxılan vətəndaşın hüququna

Testin çətinlik dərəcəsi: orta

İstinad:  "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

138.  Vətəndaşların müraciəti haqqında Azərbaycan Respublikasının Qanununa əsasən- "müraciətlər barəsində əsaslandırılmış qərarların qəbul edilməsini və bu qərarların vaxtında və düzgün yerinə yetirilməsini təmin etməlidirlər" bəndi hansı şəxsin vəzifə borcuna aiddir?

A)  Səyyar xidmətin Qrup rəhbərinin

B)  Müraciətinə baxılan vətəndaşın

C)  Müraciətə baxan subyektin vəzifəli şəxsinin

D) Müraciətə baxan subyektin

E) Asan xidmət mərkəzinin direktorunun

Testin çətinlik dərəcəsi: çətin

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

139. Vətəndaşların müraciəti haqqında Azərbaycan Respublikasının Qanununa əsasən- "təkrar yazılı müraciətə ilkin müraciətə baxılmasının nəticəsi barədə sənədləri əlavə etmək" bəndi hansı şəxsin hüququna aiddir?

A) Qrup rəhbərinin hüququna

B) Müraciətinə baxılan vətəndaşın hüququna

C) Müraciətə baxan subyektin hüququna

D) Müraciətə baxan subyektin vəzifəli şəxsinin hüququna

E) Asan xidmət mərkəzinin direktorunun hüququna

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

140. Vətəndaşların müraciətləri haqqında qanunda - "eyni məsələyə dair iki və daha çox şəxsin birgə müraciəti, yaxud ictimai iştirakçılığın həyata keçirilməsi ilə əlaqədar olan müraciətlər" dedikdə hansı müraciət başa düşülür?

A) Kollektiv müraciət

B) Anonim müraciət

C) Şifahi müraciət

D) Yazılı müraciət

E) Elektron müraciət

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

141. Vətəndaşların müraciətləri haqqında qanunda - "müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciət" dedikdə hansı müraciət başa düşülür?

A)  Kollektiv müraciət

B)  Anonim müraciət

C)  Şifahi müraciət

D) Yazılı müraciət

E) Elektron müraciət

Testin çətinlik dərəcəsi: asan

İstinad:  "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

142.  Vətəndaşların müraciətləri haqqında qanunda-" fiziki və hüquqi şəxslərin müraciətlərinə baxmaq və qərar qəbul etmək səlahiyyəti olan dövlət və bələdiyyə orqanları, paylarının nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslər və büdcə təşkilatları" dedikdə hansı anlayış başa düşülür?

A)  Təklif

B)  Ərizəyə baxan subyekt

C)  Müraciət

D) Şikayətə baxan subyekt

E) Müraciətə baxan subyekt

Testin çətinlik dərəcəsi: çətin

İstinad:  "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

143.  Vətəndaşların müraciətləri haqqında qanunda-"qanunların və digər normativ hüquqi aktların təkmilləşdirilməsi, elm, təhsil, hüquq, sosial-iqtisadi, yaradıcılıq və başqa sahələrlə bağlı məsələlərin həlli barədə edilən müraciət" dedikdə hansı anlayış başa düşülür?

A) Təklif

B)  Ərizə

C)  Müraciət

D) Şikayət

E) Sərəncam

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

144. Vətəndaşların müraciətləri ilə bağlı kargüzarlıq hansı qaydada aparılır?

A) Energetika Nazirliyinin müəyyən etdiyi qaydada

B) Dövlət Neft şirkətinin müəyyən etdiyi qaydada

C) Təhsil Nazirliyinin müəyyən etdiyi qaydada

D) Müvafiq İcra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada

E) Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

145. Yazılı müraciət nümayəndə vasitəsilə təqdim edildikdə müraciətə nümayəndənin hansı sənədi əlavə olunmalıdır?

A) Nümayəndənin şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnaməsi

B) Nümayəndənin ali təhsil haqqında diplomu

C) Nümayəndənin yaşayış yeri haqqında arayışı

D) Nümayəndənin əmək kitabçası

E) Nümayəndənin səlahiyyətini təsdiqləyən sənədin surəti

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

146. Yazılı müraciət zamanı müraciət edən fiziki şəxsə aid qeyd olunanlardan hansı məlumata ehtiyac yoxdur?

A) Adı

B) Atasının adı

C) Təhsil aldığı məktəb

D) Soyadı

E) Ünvanı (yaxud işlədiyi yer)

Testin çətinlik dərəcəsi: asan

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

147. Yuxarı dövlət orqanı vətəndaşların müraciətlərini baxılmaq üçün aidiyyəti dövlət və bələdiyyə orqanlarına və ya digər müraciətə baxan subyektə göndərdikdə, həmin müraciətə baxılmanın nəticəsi barədə yuxarı dövlət orqanının tələbi ilə kim tərəfindən ona məlumat verilməlidir?

A) Müraciətə baxan subyektin rəhbəri tərəfindən

B) Müraciətə baxan subyekt tərəfindən

C) Müvafiq icra hakimiyyəti nümayəndələri tərəfindən

D) Bələdiyyə orqanının nümayəndələri tərəfindən

E) ASAN xidmət könüllüləri tərəfindən

Testin çətinlik dərəcəsi: orta

İstinad: "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu

148. . "Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək, şəxslərin qəbulunu həyata keçirmək" cümləsi qeyd olunan bəndlərdən hansına aiddir?

A) Mərkəzin fəaliyyət istiqamətləri

B) Mərkəzin əsas vəzifələri

C) Mərkəzin hüquqları

D) Səyyar xidmətlərin təşkili sektorunun funksiyaları

E) Mərkəzin Uçot sektorunun funksiyaları

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

149. . Qazdan istifadə qaydalarına əsasən-“Qazdan istifadə Qaydaları”nda nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək” cümləsi qeyd olunan bəndlərdən hansının vəzifələrinə aiddir?

A)  İstehlakçının vəzifələri

B)  Energetika Nazirliyi əməkdaşının vəzifələri

C)  Nazirlər Kabineti əməkdaşının vəzifələri

D) Asan xidmət əməkdaşının vəzifələri

E) Paylayıcının vəzifələri

Testin çətinlik dərəcəsi: orta

İstinad:  “Qazdan istifadə Qaydaları”. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı

150. “Agentliyin sədrinin tapşırığı ilə hesabatlar, arayışlar və məlumatlar hazırlamaq” cümləsi qeyd olunan bəndlərdən hansına aiddir?

A)  Səyyar xidmətlərin təşkili sektorunun funksiyaları

B)  Mərkəzin fəaliyyət istiqamətləri

C)  Mərkəzin hüquqları

D) Mərkəzin əsas vəzifələri

E) Mərkəzin Uçot sektorunun funksiyaları

Testin çətinlik dərəcəsi: orta

İstinad:  Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” mərkəzi haqqında - Nümunəvi Əsasnamə

151. “ASAN xidmət” mərkəzi fəaliyyətinin həyata keçirilməsi ilə bağlı elektron lövhələr və işarələrlə, dövlət orqanlarının və mərkəzin əməkdaşlarını texniki avadanlıqlar və qurğularla təmin etmək hansı sektorun funksiyasına aiddir?

A)  Vətəndaşların qəbulu işinin təşkili sektoru

B)  Vətəndaşların hüquqlarının təminatı sektoru

C)  Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: orta

İstinad:  Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

152. "ASAN xidmət" mərkəzi üzrə Agentliyin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən etmək və bu barədə təkliflərini Agentliyin rəhbərliyinə təqdim etmək hansı şəxsin səlahiyyətlərinə aiddir?

A)  Mərkəzin direktorunun

B)  Sektor müdirinin

C)  Səyyar xidmətin qrup rəhbərinin

D) Müraciəti qəbul edən subyektin

E) Agentliyin sədrinin

Testin çətinlik dərəcəsi: asan

İstinad:  Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

153. "ASAN xidmət" mərkəzi üzrə inventar və avadanlıqların alınması üçün ehtiyacları müəyyən etmək hansı sektorun funksiyasına aiddir?

A)  Vətəndaşların qəbulu işinin təşkili sektoru

B)  Vətəndaşların hüquqlarının təminatı sektoru

C)  Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

154. "ASAN xidmət" mərkəzində ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar, mərkəzlərdə göstərilən xidmətlərə görə daxil olan vəsait və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək, xərclərin icrasına dair məlumatları yoxlayaraq ümumiləşdirmək və dövri hesabatları hazırlamaq hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B) Vətəndaşların hüquqlarının təminatı sektoru

C) Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

155. "ASAN xidmət" mərkəzində bank əməliyyatlarında hesablara müxabirləşmə verilməsi, bank və xəzinə əməliyyatlarının həyata keçirilməsi üçün zəruri tədbirləri görmək hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B) Vətəndaşların hüquqlarının təminatı sektoru

C) Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

156. “ASAN xidmət” mərkəzində büdcədənkənar vəsaitlərin formalaşdırılması, istifadəsi və uçotuna nəzarəti təmin etmək hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B) Vətəndaşların hüquqlarının təminatı sektoru

C) Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” mərkəzi haqqında - Nümunəvi Əsasnamə

157. “ASAN xidmət” mərkəzində göstərilən xidmətlər üçün qanunla müəyyən edilmiş ödənişlərin bank şöbələri, ödəmə nöqtələri və ya internet vasitəsilə ödənilməsinə nəzarət etmək hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B) Vətəndaşların hüquqlarının təminatı sektoru

C) Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: çətin

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” mərkəzi haqqında - Nümunəvi Əsasnamə

158. “ASAN xidmət” mərkəzində göstərilən xidmətlərin fasiləsiz həyata keçirilməsini təmin etmək hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B)  Vətəndaşların hüquqlarının təminatı sektoru

C)  Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: çətin

İstinad:  Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

159. "ASAN xidmət" mərkəzində həyata keçirilən xidmətlərin qanunauyğun, keyfiyyətli və şəffaf həyata keçirilməsinə nəzarət etmək hansı sektorun funksiyasına aiddir?

A)  Vətəndaşların qəbulu işinin təşkili sektoru

B)  Vətəndaşların hüquqlarının təminatı sektoru

C)  Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: orta

İstinad:  Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

160. "ASAN xidmət" mərkəzində işçilərin əmək haqqının, mükafat, ezamiyyə və digər ödənişlərin və xərclərin hesablanmasını təmin etmək hansı sektorun funksiyasına aiddir?

A)  Vətəndaşların qəbulu işinin təşkili sektoru

B)  Vətəndaşların hüquqlarının təminatı sektoru

C)  Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

161. "ASAN xidmət" mərkəzində işçilərinin müraciətləri əsasında onlara arayışlar vermək hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B) Vətəndaşların hüquqlarının təminatı sektoru

C) Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

162. "ASAN xidmət" mərkəzində kompüter və şəbəkə avadanlıqlarının idarə edilməsini təmin etmək hansı sektorun funksiyasına aiddir?

A) Vətəndaşların qəbulu işinin təşkili sektoru

B) Vətəndaşların hüquqlarının təminatı sektoru

C) Səyyar xidmətlərin təşkili sektoru

D) Mərkəzin Uçot sektoru

E) Əməyin təhlükəsizliyi sektoru

Testin çətinlik dərəcəsi: orta

İstinad: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzi haqqında - Nümunəvi Əsasnamə

163. “ASAN xidmət” mərkəzində müəyyən edilmiş qaydada inventarizasiya aparılmasını, balansında olan əmlakın (qiymətlilərin) qiymətləndirilməsini və yenidən qiymətləndirilməsini təşkil etmək hansı sektorun funksiyasına aiddir?

